# Azərbaycan Respublikasının Mərkəzi Bankı

№ 05s **SƏRƏNCAM** "29" yanvar 2019-cu il

**"Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"**nin 2.1.3-cü və **"2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"**nın 3.9.2-ci yarımbəndlərində müəyyən edilmiş tədbirlər üzrə Mərkəzi Banka **"rəqəmsal ödənişlərin daha geniş tətbiqi üçün maarifləndirmə, təbliğat və təşviqat işinin aparılması"** tapşırığı verilmişdir.

Bu tapşırığın icrası ilə bağlı təsərrüfat subyektlərində quraşdırılmış POS-terminallar üzrə nağdsız dövriyyənin artırılması, ölkədə nağdsız ödənişlərin stimullaşdırılması sahəsində aparılan siyasətin dəstəklənməsi məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Bankının təşkil etdiyi **"Kartla ödə, kartla qazan"** adlı stimullaşdırıcı lotoreyanın uduş fondunun qanunvericiliyə uyğun olaraq oynanılmasına nəzarətin təmin olunması üçün **qərara alıram:**

Aşağıdakı tərkibdə Tiraj komissiyası yaradılsın:

| | |
|---|---|
| Yunus Abdulov | Azərbaycan Banklar Assosiasiyasının İcraçı direktoru |
| Xalidə Səfərova | Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının Lisenziyalaşdırma və sertifikatlaşdırma idarəsinin böyük mütəxəssisi |
| İlyas Rəfibəyli | Azərbaycan Dövlət İnformasiya Agentliyinin Texniki İdarəsinin rəis müavini, Baş mühəndisin müavini |

| | |
|---|---|
| Fariz Səmədov | "Azərikart" MMC-nin Ümumi işlər şöbəsinin müdiri |
| Aleksandr Kojevnikov | "Millikart" MMC-nin Strateji inkişaf və Marketinq departamentinin direktoru |

**Mərkəzi Bankın sədri** **Elman Rüstəmov**

ÜMUMİ ŞÖBƏ
SƏNƏDLƏR ÜÇÜN